


# AzTV-nin şəhid operatoru

**Siracı uşaqlıq illərindən tanıyırdım. Diribaş, qoçaq bala idi. 4 yaşından etibarən ailəsi ilə birgə məcburi köçkün həyatı yaşamışdı. Çətin də olsa böyüdü, AzTV-də işə düzəldi. Vətən müharibəsindən sonra dağıdılmış kəndlərimizi, şəhərlərimizi televiziya ekranlarında canlandırdı. Hər dəfə cəbhədən evə qayıdanda deyirdi ki, 28 ildən sonra torpaqlarımız alınıb. 7–8 aylıq əziyyətdən sonra doğma, Qubadlı torpağımı görmək mənə də qismət oldu. Hər dəfə gələndə Dondarlıda görüklərindən ürəkağrısı ilə danışırdı: “Şəhid dayım Həmzə Adıyevin yaşadığı yerlə-yeksan edilmiş evin qarşısında onun şəklini asdım. Öz evimizə də baş çəkdim. Nə qalmışdı ki? Quru divarları da söküb aparmışdılar”.**

Nəhayət, 4 iyun 2021-ci ildə Kəlbəcər rayonunun Susuzluq kəndinə gedən yolda minaya düşərək şəhid oldu. 5 iyunda Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bəli, Sirac yaşadığı Sumqayıt şəhərində Şəhidlər xiyabanında dayısı, şəhid Həmzə Adıyevin yanında dəfn olunub. İndi bura Adıyevlər və Abışovların, eləcə də Siracsevənlərin ziyarət yerinə çevrilmişdir.

**Biz də Siracın anası ilə görüşərək , onun qəhrəman, igid övladı haqqında xatirələrini danışmasını xahiş etdik:**

– “Deyirdik, oğlunu öyrədək, atasının qabağına qaçsın, indi Özgür qaçır, atasını görmür. Sirac bir an da olsa, yadımdan çıxmır. İnanmıram ki, nə vaxtsa o, mənim yadımdan çıxar. Mehriban, qayğıkeş övlad idi. Onun dörd yaşı olanda bizim köçkünlük həyatımız başlamışdı və 1993-cü ildən Sumqayıtın Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi şəhərcikdə məskunlaşmışdıq.

Həmin vaxtdan oğlum, demək olar ki, öz həyatını yaşamayıb, tez böyüdü... 1994-cü ildə onun dayısı Həmzə Adıyev Vətən uğrunda gedən savaşda şəhid olub. Həmişə Siracı özümlə Şəhidlər xiyabanına aparırdım. Mənə deyirdi ki, ana, qorxma, böyüyüb, dayımın intiqamını alacam. O, düşmənə qarşı öz kamerası ilə döyüşürdü. Sirac orada olanda gecələr də yatmırdım, dualar edirdim. Hər gün danışırdıq. Qarabağ zonasında balaca bir çiçək tapsa, şəkillərini mənə göndərirdi...

Hadisə olan gün, saat 10-a işləmiş “Özünüzdən muğayat olun” deyə axırıncı mesajı göndərib. Mən də yazdım ki, sən də özündən muğayat ol. Heç o mesajı oxumadı da. O, çox ailəcanlı, ataya-anaya bağlı idi, razı olmurdu ki, ondan nigaran qalaq... Hər yeri qarış-qarış çəkib. Hadisə olan gün qohumlar, tanışlar mənə zəng etdilər, hal-əhval tutdular. Bildim ki, nəsə baş verib. Amma Sirac heç ağlıma gəlmirdi... Xəbəri eşitdikdən sonrasını xatırlamıram. O, mənim sirdaşım idi. Müharibə başlayanda şəhidlər haqqında veriliş olanda yanımda oturub əlimdən tuturdu ki, həyəcanlanmayım.

Atası Abış Abışov da söhbətə qoşulur. Deyir ki, biz də, Sirac da təhlükəni bilirdik. O gedəndə ağladım, dedim, getmə. Amma oğlum getməli olduğunu dedi və getdi... Sirac haqqında günlərlə danışsam da bitməz. Onu demək istəyirəm ki, möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısını hər zaman hiss edirik. İndi bizim yeni mənzilimiz var. Sosial qayğılarımız da həll olunub.

**M.MÜKƏRRƏMOĞLU, “Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 28 sentyabr.- S.7.